Aqrar Xidmətlər
Agentliyi

# Pambıq mənəsi
## (Aphis gossypii) (Glover)



088-588
axa.gov.az

# Zərərverici haqqında

Pambıq mənənələri bitkinin ən zərif hissələrində - budağın təpə hissəsində və cavan yarpaqlarında məskunlaşaraq xortumu ilə onları deşib şirə sorur və toxumalara tüpürcək vəzlərinin ifrazatını yeridirlər. Nəticədə toxumalar dağılır, cücərti zədələndikdə təpə tumurcuq məhv olur. Bir qədər sonra zədələnmiş yarpaqlar burulur, qırışır və bir qismi tökülürlər. Generarativ orqanların formalaşdığı dövrdə mənənə ilə zədələnmə qönçə və qoza başlanğıclarının tökülməsinə səbəb olur, tökülməyən qozalar isə az məhsuldar olurlar. İtki əksər hallarda 20%-dən yuxarı olur. Qozaların açdığı dövrdə mənənə ifrazatı ilə pambıq mahlıcını çirkləndirir. İfrazat üzərində inkişaf edən qurum göbələkləri pambıq liflərinin qaralmasına və xarab olmasına səbəb olurlar

# Mübarizə tədbirləri

Mədəni bitkilərin vegetasiyaları arasındakı dövrdə bostan mənənəsi alaq otları üzərində yaşayır və qidalanirlar. Bu səbəbdən alaq otları tam məhv edilməlidir. Mənənə ilə bioloji mübarizədə yırtıcı afidimiza, Aphidiidae fəsiləsindən olan parazitlıərdən və qismən Cycloneda limbifer, Micromus angulatus, Chrysopa spp., Leis dimidiate sürfələrindən istifadə edilməklə mübarizə aparılır. Pambıq bitkisinin 100 yarpağı üzərində mənənələr 50 -dən çox olarsa, sorucu zərərverici əleyhinə dimethoat tərkibli preparatları ilə sahə dərmanlanmalıdır. Mənənə əleyhinə asetamiprid tərkibli insektisidləri çox səmərəlidirlər.



## Zərərverici